Mədəniyyət.- 2023.- 5 iyul. S. 3.

# Mədəniyyət Nazirliyində kinorejissor Cəmil Quliyevlə görüş

İyulun 3-də kinorejissor, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Film Fondunun direktoru, professor Cəmil Quliyevin 60 yaşı tamam oldu. Bu münasibətlə Mədəniyyət Nazirliyində yubilyarla görüş keçirilib.



Mədəniyyət naziri Adil Kərimli 60 illik yubileyi ilə əlaqədar rejissora nazirliyin kollektivi və ölkəmizin mədəniyyət ictimaiyyəti adından təbriklərini çatdırıb.

Cəmil Quliyev fəaliyyətinə göstərilən diqqətə görə nazirə təşəkkürünü bildirib.

Qeyd edək ki, gənc yaşlarından taleyini kino sahəsinə bağlayan Cəmil Quliyev “Azərbaycanfilm” kinostudiyasında quruluşçu rejissor kimi bir sıra bədii və sənədli filmləri lentə alıb. 35 ildən çoxdur Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərir, kinematoqraf kadrların hazırlanmasına öz töhfəsini verir.

Cəmil Quliyevi əlamətdar yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı, uzun ömür və işlərində uğurlar arzulayırıq.